AZƏRBAYCAN RESPUBLIKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ
ŞAMAXI FİLİALI

ƏMR

№ 02/94

Şamaxı şəhəri «15» 12 2020 – ci il

**İmtahan sessiyasının təşkili və keçirilməsi barədə**

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 2020-ci il 11 dekabr tarixli F -530 nömrəli əmrininin icrasını təmin etmək məqsədilə

**əmr edirəm:**

1. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı Filialında 2020/2021-ci tədris ilinin payız semestrinin imtahan sessiyası 2021-ci ilin yanvar ayının 11-də başlamaqla 4 həftə müddətində keçirilsin.

2. İmtahan sessiyası distant (məsafədən) formada keçirilsin.

3. ADPU-nun Şamaxı Filialında müəyyən imtahanlar əyani formada keçirildiyi təqdirdə "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxs tərəfindən hazırlanmış "İmtahanlar zamanı koronavirus infeksiyasının (COVİD-19) proflaktikasına dair metodiki göstərişlər"ə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 sentyabr tarixli 332 nömrəli qərarı ilə təsdiq edilmiş "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları"na riayət olunsun.

4. 2020/2021-ci tədris ilinin imtahan sessiyasını mövcud qaydalara uyğun təşkil etmək, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığı və obyektivliyi təmin etmək üçün aşağıdakı tərkibdə **"İmtahan qərargahı"** (qerargah_adpu_shamaxi@mail.ru) yaradılsın:

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı
ƏSLİ İLƏ DÜZDÜR

- Dadaşov Çingiz Zəbhulla oğlu –filialın Həmkarlar İttifaqı Komitəsinin sədri, baş müəllim, rəhbər;

- Zülfiqarov Ədilxan Dədəxan oğlu – filialın Tələbə və tədrisin idarə olunması şöbəsinin Pedaqoji təcrübə rəhbəri, Ədəbiyyat və dillər kafedrasının 0,5 ştat əvəzçi müəllimi, müavin;

- Abdullayev Babək Əlisöhbət oğlu - filialın Sosial və pedaqoji elmlər kafedrasının müəllimi, üzv;

- Rəhimova Mətanət Cümşüd qızı - filialın Kompüter mərkəzinin müdiri,Riyaziyyat və kompüter elmləri kafedrasının 0,5 ştat əvəzçi müəllimi,üzv;

**4. "İmtahan qərargahına" tapşırılsın:**

- qərargaha daxil olan hər bir şikayətin qısa müddətdə operativ şəkildə araşdırılmasını təmin etsin;
- imtahanların təşkilində və gedişatında nöqsanlara yol vermiş şəxslər barədə mövcud qanunvericiliyə uyğun tədbirlər görsünlər;

**5.** "İmtahan qərargahı"nın email ünvanının tələbələrə, valideynlərə və ictimaiyyətə çatdırılmasını Tədris və elmi işlər üzrə direktor müavini Şasəddin Mikayılov, Pedaqoji fakültə dekanı Qahirə Şahbazova, Tələbə və tədrisin idarə olunması şöbəsinin müdiri Fəxrəddin Məmmədov və Mətbuat və informasiya üzrə məsul şəxs Şəlalə Seyidova təmin etsin.

**6.** Tədris və elmi işlər üzrə direktor müavini Şasəddin Mikayılova tapşırılsın ki, imtahan sessiyasının nəticələri barədə sessiya bitdikdən 3 (gün) müddətində direktorluğa hesabat təqdim etsin.

**7.** "İmtahan qərargahı"nın rəhbəri Dadaşov Çingiz Zəbhulla oğluna tapşırılsın ki, imtahan sessiyasının nəticələri barədə sessiya bitdikdən 5 gün müddətində direktorluğa yekun hesabat təqdim etsin.

**8.** Əmrin surətinin aidiyyətı struktur bölmələrə çatdırılması Kadrlar və ümumi şöbəyə tapşırılsın.

**9.** Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

**Əsas:** Azərbaycan Respublikası Təhsil Nazirliyinin 2020-ci il 11 dekabr tarixli F 530 nömrəli əmri.

**Direktor:** **dos.Tünzalə Yusifova**

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı
ƏSLİ İLƏ DÜZDÜR